Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 18 ” dekabr tarixli
528 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

# Rəqabət orqanının qərarı əsasında bazarın monitorinqinin aparılması

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin (bundan sonra – Məcəllə) 44.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və rəqabət orqanının qərarı əsasında müxtəlif məhsul bazarının və (və ya) bazarlarının monitorinqinin aparılması qaydalarını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar Məcəllədə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

1.3. Bu Qayda “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş monitorinqlərə şamil edilmir.

## 2. Bazarın monitorinqinin növü və müddəti

2.1. Rəqabət orqanı tərəfindən bazarın monitorinqi plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) aparılır.

2.2. Monitorinq 30 (otuz) iş günündən artıq olmayan müddətdə aparılır. Monitorinqin aparılması üçün əlavə müddət tələb olunduqda, rəqabət orqanının əsaslandırılmış qərarına əsasən monitorinqin müddəti hər dəfə 30 (otuz) iş günü müddətinə uzadılmaqla 90 (doxsan) iş gününədək artırıla bilər.

2.3. Rəqabət orqanının əsaslandırılmış qərarına əsasən monitorinq aşağıda göstərilən hallarda və müddətlərdə, lakin 6 (altı) aydan çox olmamaqla dayandırılır:

2.3.1. rəqabət orqanının təşəbbüsü ilə monitorinqə mütəxəssis dəvət edildikdə və ya ekspertiza keçirildikdə – mütəxəssisin və ya ekspertin rəyi monitorinqə təqdim edilənədək;

2.3.2. monitorinqin obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən rəqabət orqanının sorğusuna cavab müvafiq mərkəzi icra hakimiyyəti orqanları və ya icra hakimiyyəti orqanları yanında fəaliyyət göstərən digər qurumlardan və Məcəllənin 35-ci maddəsinə əsasən digər müvafiq bazar subyektindən alındıqda – onlardan cavab alınanadək;

2.3.3. monitorinqin obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən rəqabət orqanının sorğusuna cavab xarici ölkədən alındıqda – xarici ölkədən cavab alınanadək;

2.3.4. iqtisadi, tənzimləyici, inzibati və sosial amillər təşəkkül tapdıqda – həmin hallar aradan qalxanadək;

2.3.5. monitorinqin aparılmasına mane olan digər hallar olduqda – həmin hallar aradan qalxanadək.

2.4. Monitorinqin dayandırıldığı müddət monitorinqin ümumi müddətinə daxil edilmir.

2.5. Bu Qaydanın 2.3-cü bəndində qeyd olunan hallar aradan qalxdıqda rəqabət orqanı monitorinqin bərpa olunması barədə qərar qəbul edir, həmin gündən müddət axımı bərpa olunur.

2.6. Bu Qaydanın 2.3-cü bəndində qeyd olunan müddət ərzində həmin hallar aradan qalxmadıqda rəqabət orqanı 15 (on beş) iş günü müddətində monitorinqə xitam verilməsi haqqında qərar qəbul edir.

## 3. Plan üzrə (növbəti) bazar monitorinqi

3.1. Plan üzrə (növbəti) bazar monitorinqi rəqabət orqanının tərtib etdiyi illik plan əsasında aparılır.

3.2. Monitorinqin davamlı aparılması zəruri olan bazarları əhatə edən illik monitorinq planı rəqabət orqanı rəhbəri tərəfindən növbəti il üçün təsdiq edilir.

3.3. Plan üzrə (növbəti) bazar monitorinqi illik planda göstərilən tarixlərdə aparılır.

3.4. İllik monitorinq planı yuxarı orqanların tapşırıqları, ölkənin sosialiqtisadi vəziyyəti, rəqabət qanunvericiliyinin pozulmasına dair bazar subyektləri və ayrı-ayrı şəxslərdən daxil olan sənədlər, məlumatlar və müraciətlər, mediada (eləcə də sosial şəbəkələrdə) dərc olunan (yayımlanan) rəqabət qanunvericiliyinin pozulması əlamətlərini əks edən, müştərilərin hüquqlarına və qanuni mənafelərinə, bazarda rəqabət vəziyyətinə xələl gətirən məlumatlar, habelə Məcəllənin 44.1-ci maddəsində göstərilmiş məqsədlər nəzərə alınmaqla hazırlanır.

3.5. İllik monitorinq planında aşağıdakı məlumatlar göstərilir:

3.5.1. rəqabət orqanının adı (birgə monitorinq aparılan zaman digər orqanların (qurumların) da adları göstərilməlidir);

3.5.2. monitorinqi nəzərdə tutulmuş müvafiq məhsul bazarına dair məlumat;

3.5.3. monitorinqin aparıldığı bölgə, şəhər, rayon, qəsəbə, kənd və digər;

3.5.4. monitorinqin müddəti (başlama və sona çatma tarixləri göstərilməklə);

3.5.5. monitorinqi aparan vəzifəli şəxsin və (və ya) şəxslərin soyadı, adı, atasının adı və vəzifəsi;

3.5.6. monitorinqin aparılmasının məqsədi (Məcəllənin 44.1-ci maddəsində göstərilmiş məqsəd və (və ya) məqsədlər maddəsinin nömrəsi və tələbi göstərilməklə).

3.6. Plan üzrə (növbəti) bazar monitorinqinin növbəti il üzrə illik planı rəqabət orqanının rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən dekabrın 1-dən gec olmayaraq təsdiqlənir.

3.7. Rəqabət orqanı müvafiq məhsul bazarında bir neçə dövlət orqanı (qurumu) ilə birgə monitorinq apara bilər.

## 4. Plandankənar (növbədənkənar) bazar monitorinqi

4.1. Rəqabət orqanı tərəfindən plandankənar (növbədənkənar) monitorinqlər yuxarı orqanların təcili tapşırıqları, ölkənin sosial-iqtisadi vəziyyətində ciddi dəyişikliklərin əlamətləri olduqda, rəqabət qanunvericiliyinin pozulmasına dair bazar subyektləri və ayrı-ayrı şəxslərdən daxil olan sənədlərin, məlumatların və müraciətlərin məzmununda təxirəsalınmaz tədbirlərin görülməsinə dair əsaslar olduqda, bazar subyektləri arasında qiymətlərin razılaşdırılmasına yönəlmiş sazişlər və ya qiymət manipulyasiyasına dair ciddi şübhələr olduqda, mediada (eləcə də sosial şəbəkələrdə) dərc olunan (yayımlanan) rəqabət qanunvericiliyinin pozulmasına dair mühüm əlamətləri əks edən məlumatlardan biri olduğu hallarda, rəqabət orqanının qərarı əsasında aparıla bilər.

4.2. Rəqabət orqanı plandankənar (növbədənkənar) monitorinqin aparılmasını zəruri hesab etmədiyi təqdirdə bu monitorinqin növbəti il üçün plan üzrə (növbəti) bazar monitorinqi planına daxil edə bilər.

## 5. Bazar monitorinqinin aparılması haqqında qərarın qəbul edilməsi

5.1. Monitorinq rəqabət orqanının rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən imzalanan qərar əsasında aparılır. Monitorinqin aparılmasına birbaşa cavabdeh olan rəqabət orqanının struktur bölməsinin rəhbəri (şöbə (müstəqil sektor) müdir) qərarla müəyyən edilir.

5.2. Monitorinq yalnız onun aparılması haqqında qərarda göstərilən vəzifəli şəxs və (və ya) şəxslər tərəfindən aparılır.

5.3. Monitorinqi aparılan müvafiq məhsul bazarı haqqında məlumatların toplanmasında, monitorinqin nəticələrinin təhlili və qiymətləndirilməsində sistemliliyin, monitorinqin effektivliyinin, şəffaflığının, monitorinqin prosesinin sadələşdirilməsinin təmin olunması məqsədilə rəqabət orqanı tərəfindən monitorinqlər zamanı monitorinq suallarının siyahısından istifadə olunmalıdır.

5.4. Monitorinq sualları monitorinqin aparılmasına birbaşa cavabdeh olan rəqabət orqanının struktur bölməsinin rəhbəri (şöbə (müstəqil sektor) müdir) tərəfindən orqanın rəhbəri və ya onu əvəz edən şəxslə razılaşdırılmaqla təsdiq edilir. Monitorinq sualları monitorinqin aparılması haqqında qərara əlavə edilir və onun tərkib hissəsidir.

5.5. Monitorinq sualları Məcəllənin 44.1-ci maddəsində göstərilmiş məqsədlərin həyata keçirilməsi üçün rəqabət orqanının səlahiyyətləri nəzərə alınmaqla aydın və birmənalı tərtib olunmalıdır.

## 6. Monitorinqin aparılması

6.1. Monitorinqin aparılması haqqında qərarda göstərilmiş vəzifəli şəxs və (və ya) şəxslər monitorinqi qərarda göstərilmiş yerlərdə və müddətdə iş vaxtında və iş günlərində aparmalıdırlar.

6.2. Müvafiq məhsul bazarlarında monitorinqlər müşahidə və baxış formasında həyata keçirilir.

6.3. Monitorinq zamanı sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi ictimaiyyətə açıq olmayan yerlərə gəlməklə monitorinqin aparılmasına yol verilmir.

6.4. Müvafiq məhsul bazarının satış sahələrinə (topdansatış və pərakəndə satış) və ictimai iaşə yerlərinə gedilməklə aparılan monitorinqlər zamanı sahibkardan heç bir sənəd tələb edilə və ya "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hərəkətlər edilə bilməz.

6.5. Monitorinqin aparılması və qoyulmuş sualları monitorinqi aparan vəzifəli şəxs və (və ya) şəxslər vizual baxışla müəyyən etməlidirlər.

6.6. Monitorinqin aparılması və qoyulmuş sualları monitorinqi aparan vəzifəli şəxs və (və ya) şəxslər sahibkarlıq subyekti ilə dəqiqləşdirmək zərurəti yarandığı təqdirdə suallarını sadəcə müştəri qismində bazar subyektinə və ya bazar subyektinin hər hansı işçisinə verə bilərlər.

6.7. Monitorinqlər bazar subyektinin normal iş rejimini pozmamalıdır.

6.8. Monitorinqin predmetinə aid olan məsələlərin aydınlaşdırılması məqsədilə rəqabət orqanı monitorinqə aid sənədlərin və məlumatların alınması üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə və digər bazar subyektlərinə müraciətlər göndərə bilər. Müraciətə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ən qısa müddətdə, lakin 7 (yeddi) iş günündən gec olmayan müddətə cavab verilməlidir.

6.9. Monitorinq zamanı monitorinqi aparan vəzifəli şəxs və (və ya) şəxslər əsaslı qərar qəbul etmək üçün bütün fakt və məsələləri, o cümlədən monitorinqi aparılan müvafiq məhsul bazarının iştirakçıları üçün əlverişli olan halları aydınlaşdırmalıdır.

6.10. Monitorinq zamanı monitorinqi aparan vəzifəli şəxs və (və ya) şəxslər monitorinqin foto, video çəkilişini və səs yazılışını müştəri qismində apara bilərlər.

6.11. Monitorinq zamanı ekspertin və (və ya) mütəxəssisin dəvət edilməsi, tərcüməçinin iştirakı Məcəlləyə uyğun həyata keçirilir.

## 7. Monitorinqin nəticələrinin rəsmiləşdirilməsi

7.1. "Bazar monitorinqinin nəticələrinə dair akt" monitorinq başa çatdıqdan sonra 10 (on) iş günü müddətində "Bazar monitorinqinin nəticələrinə dair aktın tərtib edilməsi Qaydası"nda göstərilən tələblərə uyğun olaraq tərtib edilir.

7.2. Aktda monitorinq zamanı aşkar edilmiş faktlar aydın və dəqiq göstərilməlidir.

7.3. Akta monitorinqin aparılması üçün edilmiş bütün hərəkət və prosedurları, aşkar edilmiş halları və monitorinqin nəticələri üzrə təklifləri özündə əks etdirən dolğun və hərtərəfli hazırlanmış arayış əlavə edilir və arayış aktın tərkib hissəsidir. Monitorinq zamanı əhəmiyyət kəsb edən faktları və halları əks etdirən fotoşəkillər və audiovizual materiallar da akta qoşma kimi əlavə edilir.

7.4. Akt monitorinqi aparan vəzifəli şəxs və (və ya) şəxslər tərəfindən tərtib edilir və imzalanır.

7.5. Vəzifəli şəxslər, habelə rəqabət orqanının digər monitorinq iştirakçıları tərəfindən bazar monitorinqi zamanı əldə edilən sübut və məlumatlar Məcəllənin 45-ci maddəsi üzrə məlumatların təhlili zamanı istifadə edilə bilər.

## 8. Monitorinq materiallarına baxılması

8.1. Monitorinqin nəticələrinə dair akt tərtib edildiyi tarixdən sonra 3 (üç) iş günü müddətində monitorinq materialları rəqabət orqanının vəzifəli şəxsinə təqdim edilir.

8.2. Rəqabət orqanının vəzifəli şəxsi monitorinq materiallarına baxarkən düzgün qərar çıxarılması üçün əhəmiyyət kəsb edən bütün halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur. Bu zaman bazar iştirakçılarının xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edilə bilməz.

8.3. Monitorinq materiallarına baxılmasının nəticələri üzrə rəqabət orqanı 15 (on beş) iş günü müddətində aşağıda qeyd edilən qərarlardan birini qəbul edir:

8.3.1. rəqabət qanunvericiliyinin pozulması halları və ya əlamətləri aşkar edildikdə Məcəllənin tələblərinə uyğun olaraq rəqabət qanunvericiliyinin pozulması hallarının araşdırılması barədə;

8.3.2. rəqabət qanunvericiliyinin pozulması halları və ya əlamətləri aşkar edilmədikdə qanun pozuntusunun aşkar olunmaması barədə.

## 9. Rəqabət orqanının və monitorinqi aparan vəzifəli şəxsin və (və ya) şəxslərin məsuliyyəti

Monitorinqi aparan vəzifəli şəxs və (və ya) şəxslər vəzifə borclarının yerinə yetirilməməsinə, vəzifə səlahiyyətlərini aşmasına və bazar subyektinə vurulan zərərə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.